2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 6 yanvar 2020-ci il tarixli, 9 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 8 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Taleh Sakit oğlunun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə 44 saylı Sumqayıt-Xızı seçki dairəsi dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 2/4 saylı qərarından namizəd tərəfindən verilmiş 6 yanvar 2020-ci il tarixli 9 saylı müraciəti araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun iclasda iştirakı təmin olunmuşdur.

T.S.Məmmədovun müraciəti ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər tələb edilərək alınıb araşdırılmışdır. Müəyyən edilmişdir ki, dairə seçki komissiyası namizədliyin qeydə alınmasından imtina edilməsi barədə 2 yanvar 2020-ci il tarixli 2/4 saylı qərarını onunla əsaslandırmışdır ki, T.S.Məmmədov tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş 500 imzadan 114 imza, o cümlədən 70 imza oxşarlığa görə işçi qrupu üzvünün rəyi əsasında etibarsız hesab edildiyindən və həmin imzalar çıxıldıqdan sonra yerdə qalan imzalar Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədliyin qeydə alınması üçün kifayət etmədiyindən Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində T.S.Məmmədov tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələri yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış işçi qrupuna təqdim edilmiş və həmin imza vərəqələrindəki imzalarla bağlı məlumatların düzgünlüyünün yoxlanılması barədə işçi qrupunun 7 yanvar 2020-ci il tarixli protokoluna əsasən yoxlanılmış 500 imzadan 16 imza etibarsız, 484 imza isə etibarlı hesab edilmişdir. Seçki Məcəllənin 147.1-ci maddəsinə əsasən etibarlı hesab edilən imzaların sayı T.S.Məmmədovun namizədliyin qeydə alınması üçün hüquqi əsas yaratmışdır.

Beləliklə namizəd T.S.Məmmədovun müraciətinin təmin edilməsi, dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilərək namizədliyin qeydə alınması üçün hüquqi əsasların mövcud olması müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət təmin olunmalı, dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 2/4 saylı qərarı ləğv olunmalı və həmin seçki dairəsindən T.S.Məmmədovun namizədliyi qeydə alınmalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 60-cı, 112-ci, 112-1-ci, 147.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki

Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1-7-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Taleh Sakit oğlunun 6 yanvar 2020-ci il tarixli 09 saylı müraciəti təmin edilsin, dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 2/4 saylı qərarı ləğv edilsin.

2. Namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Taleh Sakit oğlunun 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən deputatlığa namizədliyi qeydə alınsın.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov